# Yaddaşlarda yaşayan dəyərli alim, əsl insan



**Xanış Çingizxan oğlu Təmrazov 24 dekabr 1959-cu il tarixdə Azərbaycanın səfalı yerlərindən sayılan Yardımlı rayonunun Odraqaran kəndində dünyaya göz açmışdır. O, ilk təhsilini Odraqaran ibtidai kənd məktəbində, orta təhsilini isə Alçabulaq kənd orta məktəbində almışdır. Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) biologiya fakültəsində oxuyaraq (1977-1982), biologiya və kimya müəllimi ixtisası üzrə universiteti bitirmişdir.**

Tələbəlik illərində universitetin ictimai həyatında aktiv iştirak etmiş və 5 il qrup nümayəndəsi kimi fəaliyyət göstərmişdir. Öz arzusu ilə təyinatını doğulub boya-başa çatdığı Yardımlı rayonuna almış və 1982-1985-ci illərdə Yardımlı rayonunun Gavran kəndində kimya-biologiya müəllimi kimi çalışmışdır.

1985-ci ildə Kənd Təsərrüfatı Nazirliyinin Elmi-Tədqiqat Əkinçilik İnstitutunun Bitki mühafizəsi ixtisası üzrə əyani aspiranturasına qəbul olmuşdur. "Azərbaycan Respublikası şəraitində arpa bitkisinin helmintosporioz xəstəliyinə qarşı davamlılığının immunoloji əsasları" mövzusunda dissertasiya işini keçmiş Leninqrad (indiki Sankt-Peterburq) şəhərində yerləşən Ümumittifaq Elmi-Tədqiqat Bitki Mühafizəsi İnstitutunda ÜKTEA-nın akademiki, biologiya elmləri doktoru, professor N.N.Qusevanın elmi rəhbərliyi ilə işləmiş və 1989-cu ildə Tbilisi şəhərində biologiya elmləri namizədi üzrə dissertasiya işini müdafiə etmişdir.

Rayonun torpaq-iqlim şəraitinə uyğun onun iqtisadiyyatına təsir edə biləcək bitkilərin, o cümlədən vaxtilə rayonun müəyyən ərazilərində yayılması və yüksək məhsul verməsi ilə yadda qalmış fındıq bitkisinin əkilməsinin əhəmiyyəti barədə, eyni zamanda, ekoloji tarazlığın qorunmasında müstəsna rolu olan yaşıllığın qorunub saxlanılması və pestisidlərdən normal istifadə qaydaları barədə rayon mətbuatında çıxışlar etmişdir.

1990-cı ildə "Azərkəndkimya" RİEB-nin Respublika Bitki Mühafizəsi Stansiyasında baş aqronom, 1993-1997-ci illərdə isə sözügedən Birliyin aparatının Aqrokimyəvi və İstehsalat xidməti idarəsinin rəis müavini və rəisi vəzifələrində çalışmışdır. 1997-ci ildə Dövlət Torpaq Komitəsində mütəxəssis, 1997-2004-cü illərdə Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin Yardımlı rayon şöbəsinin müdiri, 2004-2014-cü illərdə DTXK-nın Dövlət Yerquruluşu Layihə İnstitutunda baş mütəxəssis və bölmə müdiri işləmişdir.

2014-cü il tarixdən etibarən isə təkrarən Dövlətin idarə edilməsində dövlət qulluqçusu kimi İqtisadiyyat Nazirliyinin İqtisadi və sosial sahələrin inkişafı şöbəsində fəaliyyətə başlamışdır. Biologiya elmləri namizədi elmi dərəcəsi vardır. 50-dən artıq elmi və publisistik məqalənin və bir neçə monoqrafiyanın müəllifi olmuşdur.

Xanış müəllimin tədqiqatına qədər, ölkə şəraitində arpa bitkisinin helmintosporioz xəstəliyinə qarşı davamlılığının immunoloji əsasları istiqamətində işlər dünya elmi ədəbiyyatında müzakirə olunsa da, alınan nəticələr bitki mühafizəsinin və seleksiya işlərinin aparılması üçün tam yararlı deyildi. Xanış müəllim məhz buna görə də Azərbaycanda arpa bitkisinin helmintosporioz xəstəliyinə qarşı davamlılığının immunoloji əsaslarının həm nəzəri, həm də təcrübi əsaslarının öyrənilməsi istiqamətində elmi-tədqiqat işləri aparmışdır.

Onun araşdırma apardığı müddətdə məqsədi, ölkənin müxtəlif torpaq-iqlim şəraitinə uyğunlaşan, xəstəliyə davamlı və məhsuldar arpa sortlarının seçilməsində yeni yaradılacaq yüksək məhsuldar və xəstəliyə davamlı sortların genişləndirilməsində mühüm təkliflərin verilməsi olmuşdur. Bu işlərin yerinə yetirilməsi və başa çatdırılması üçün o, tədqiqat apardığı müddətdə çoxlu sayda məsələlərin öyrənilməsini qarşıya məqsəd qoymuşdur.

X.Təmrazovun elmə gətirdiyi yeniliyə gəldikdə isə, o, ilk dəfə olaraq Azərbaycan Respublikası şəraitində arpa bitkisinin helmintosporioz xəstəliyinə qarşı davamlılığının immunoloji əsaslarını müqayisəli şəkildə tarla şəraitində öyrənmişdir. Eyni zamanda, su ilə təminatından asılı olaraq becərilən müxtəlif tipli arpa genotiplərinin xəstəliyə davamlılıq əlamətləri məhsuldarlıqla əlaqəli şəkildə öyrənilmiş və bunun əsasında seleksiyada müxtəlif xəstəliyə davamlı genotiplərin yaradılması üçün tövsiyələr vermişdir.

Xanış müəllimin apardığı elmi-tədqiqat işlərinin nəticələri müxtəlif illərdə xarici ölkələrdə və Bakıda keçirilən beynəlxalq elmi-praktiki konfranslarda və seminarlarda müzakirə olunmuşdur. O, dəfələrlə beynəlxalq səviyyəli tədbirlərdə maraqlı məruzələrlə çıxış etmişdir. O, hətta Beynəlxalq Seleksiya Mərkəzi olan CİMMYT və İCARDA təşkilatı ilə birgə aparılan tədqiqat proqramlarında da yaxından iştirak etmişdir.

Müsabiqəli Qrantlar Proqramı çərçivəsində bir neçə qrant layihəsinin həyata keçirilməsində müvəffəqiyyətlə iştirak etmişdir. Layihələrin yerinə yetirilməsi respublikanın ayrı-ayrı bölgələrində yeni xəstəliyə davamlı arpa sortlarının daha sürətlə yayılmasına, nəticədə fermerlərin daha da rentabelli işləmələrinə və maliyyə imkanlarının yaxşılaşmasına səbəb olmuşdur. Layihələrin tətbiq dairəsi respublikanın rayonlarının, fermer və özəl kəndli təsərrüfatlarının hektarlarla əkin sahəsini əhatə etmişdir. X.Təmrazov əldə etdiyi elmi nəticələri və yenilikləri təsərrüfatlarda tətbiq etmək üçün vaxtaşırı bölgələrə gedir, fermerlərlə görüşür, yeni genotiplərin üstünlüklərini nümayiş etdirir, fermerləri maraqlandıran məsələlərə dair suallara aydınlıq gətirirdi.

Bir sözlə, çətin şəraitdə yaşadığına, elmə ayrılan vəsaitin az olmasına, bütün çətinliklərlə üzləşməsinə baxmayaraq, Xanış müəllim elm sahəsində qarşısına qoyduğu məqsədlərə nail olmuşdu. O, peşəkar alim kimi bilik və təcrübəsini böyük həvəslə gənclərə öyrətmiş, onlara elmi və metodiki köməklik göstərmişdir. O, ayrı-ayrı vaxtlarda İnstitut Həmkarlar Təşkilatının büro üzvü kimi fəaliyyət göstərmiş və müzakirə olunan məsələlərə dair obyektiv və səmərəli təkliflərin irəli sürülməsi ilə fərqlənmişdir.

Xanış müəllim elmlər doktorluq mövzusu üzrə də elmi-tədqiqat işlərini davam etdirirdi. O, elmi-tədqiqatla yanaşı, müxtəlif dövlət ali təhsil müəssisələrində (BDU və ADPU) öz ixtisasına uyğun pedaqoji fəaliyyətlə də məşğul olurdu. Ölkədə təcrübəli gənc kadrların hazırlanmasında yüksək səviyyədə həm nəzəri, həm də praktiki biliklərin öyrədilməsində müstəsna xidmətlərə malik idi. O, dəfələrlə müxtəlif aktual problemlərin müzakirələri ilə bağlı beynəlxalq səviyyəli konfrans, seminar, müşavirə və s. tədbirlərdə iştirak edərək Azərbaycan aqrar elmini layiqincə təmsil etmişdir.

Mən tələbə olduğum dövrdən rəhmətlik mənə həm ata, həm də müəllimlik qayğısı göstərmişdir. Ən əsası isə gənc yaşlarımda mənə həyatın müəyyən qanunauyğunluqlarını lazımi səviyyədə başa salmışdır. Elə o dövrdən də Xanış müəllimin təbiət etibarilə alicənab, ağayana, mədəni bir şəxs olduğunu hiss etmişəm. Onun zəhmətkeş alim olmaqla yanaşı, prinsipial, qətiyyətli olması mənə həyatda çox şeyləri öyrətdi. Xanış müəllim elinə-obasına bağlı vətənpərvər ziyalı, səmimi, diqqətcil, həssas bir insan idi. Onun səmimiliyini, diqqətcilliyini, həssaslığını onu yaxından tanıyanlar təsdiqləyə bilər. O, eyni zamanda, maraqlı həmsöhbət idi. Hətta maraqlı mövzuda apardığı söhbətlərdə bütün ətrafdakı insanların diqqətini özünə cəlb etməyi bacarırdı. Bu xüsusiyyət hər bir insanda olmur. Rəhmətlik doğulub boya-başa çatdığı Yardımlı rayonunun Odraqaran kənd camaatının böyük etimadını qazanmış bir şəxsiyyət, kamil bir insan idi. Çox az hallarda rayona və ya kəndə gedərdi. Kəndə gedişi zaman isə onu tanıyan qohumlar, dostlar, yaxınlar üçün bayram olardı. Hamı onun ətrafına yığışardı. Onun savadlı mülahizələrinə diqqətlə qulaq asar və nə isə öyrənmək istərdilər.

Hər zaman söhbətlərində orta məktəb illərində ona dərs demiş müəllimlərinin adlarını ehtiramla yad edirdi. O, orta məktəb illərində təhsil alarkən dəqiq fənlər üzrə rayon olimpiada yarışlarında iştirak edib, uğur qazandığına görə müxtəlif mükafatlara layiq görülmüşdü. İctimai işlərdə fəaliyyətinə görə məktəb kollektivinin hörmətini qazanmışdı. Orta məktəbdə oxuduğu illərdə Xanış müəllim öz bilik, bacarığı və çalışqanlığı ilə sinif yoldaşları arasında xüsusi hörmətə sahib olmuşdu.

Onun həyat müəllimləri olan valideynləri də bu gün haqq dünyasındadırlar. Atası, rəhmətlik Çingizxan əmi və anası Qəmzə ana Xanış müəllimin keçdiyi həyat yolunda mayak olmuşlar. Valideynləri və yaxınları belə oğullarının olması ilə qürur duyurdular. Xanış müəllim ailəsinin sonbeşiyi idi. Xanış müəllimin həyatında qazandıqları da çox olub, itirdikləri də. Həyatında ən sevincli günü ilk övladı Sevincin dünyaya gəlməsi, ən böyük uğurlu günü isə dissertasiya işini müvəffəqiyyətlə müdafiə edib, biologiya elmləri namizədi alimlik dərəcəsi adını almasıdır.

Bir faktı da qeyd etmək lazımdır ki, Xanış müəllim Yardımlı rayonunda ilk alimlər sırasında idi, kənddə isə ilk alimlik adı almış insan idi. Mən özüm etiraf edə bilərəm ki, elmə maraq göstərməyimdə əsas səbəbkar o olmuşdur. Onun həyatda vaxtsız bizi tərk etməsi, ondan çox şeylər öyrənəcəyimizə maneə oldu. Yaşasaydı, özünün nəzərdə tutduğu işləri başa çatdıracaqdı, hətta ölkəyə müəyyən töhfələr verəcəkdi.

Mərhum, gözəl ailə başçısı, sədaqətli həyat yoldaşı və mərhəmətli ata idi. Onun iki övladı, üç nəvəsi var. Qızı Sevinc, oğlu isə Qadir. Nəvələrini ürəkdən sevən baba idi Xanış müəllim! O, övladlarını istədiyi kimi tərbiyələndirmiş və onların ali təhsil almalarında böyük xidməti olmuşdur. Övladlarının gələcək uğurları və xoşbəxtlikləri onun ən böyük arzusu idi. Üç nəvəsi olmasına baxmayaraq, onlardan doya bilmədi!

Xanış müəllim bu gün yaşasaydı, elmimizə, elimizə, obamıza, bir sözlə desək, dövlətimizə böyük töhfələr verəcəkdi. O, bu gün də xalqın, yaxınlarının yaddaşında dəyərli insan kimi yaşayır!

**Təmraz TƏMRAZOV,**
**biologiya üzrə**
**fəlsəfə doktoru, dosent.**